AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 3/3

Bakı şəhəri 10 fevral 2016-cı il

AMEA-nın Alimlər Evinin yaradılması barədə

AMEA-nın elmi innovasiya nailiyyətlərinin və müasir dövrdə multikulturalizm ənənələrinin cəmiyyətdə təbliği, AMEA-nın elmi əməkdaşlarının yaradıcılıq fəallığının artırılması və onların mədəni-mənəvi inkişafı istiqamətində tədbirlərin həyata keçirilməsi məqsədi ilə AMEA-da yeni qurumun – Alimlər Evinin yaradılmasına ehtiyac yaranmışdır. Bu məqsədlə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA Rəyasət Heyəti aparatının struktur tərkibinə daxil olan Alimlər Evi yaradılsın.
2. Alimlər Evinin Əsasnaməsi təsdiq edilsin (əlavə olunur).
3. Tarix üzrə fəlsəfə doktoru Nuridə Quliyeva ictimai əsaslarla AMEA-nın Alimlər Evinin direktoru təyin edilsin.
4. AMEA-nın İşlər idarəsinə (siyasi elmlər üzrə fəlsəfə doktoru Fətəli Abdullayev), AMEA Rəyasət Heyəti aparatının Hüquq və kadrlar idarəsinə (hüquq üzrə fəlsəfə doktoru Rasim Ağasiyev) və Maliyyə-iqtisad və mühasibat uçotu şöbəsinə (texnika üzrə fəlsəfə doktoru İlqar Quliyev) tapşırılsın ki, bu qərarın icrasından irəli gələn texniki, təşkilati, hüquqi və maliyyə məsələlərini həll etsinlər.
5. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT